**"NAXÇIVAN" UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2019, № 1**
**"NAKHCHIVAN" UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2019, № 1**
**УНИВЕРСИТЕТ "НАХЧЫВАН"/ НАУЧНЫЕ ТРУДЫ/ 2019, № 1**

**UOT 37**

**BİLAL ƏRDOĞAN**
"Naxçıvan" Universiteti
Bilalerdogan_21@hotmail.com

# MUSİQİ TƏLİMİ ZAMANI ŞAGİRDLƏRİN ESTETİK TƏRBİYƏSİNİN FORMALAŞDIRILMASININ BƏZİ MƏSƏLƏLƏRİ

*Musiqi təlimi zamanı ibtidai sinif şagirdlərinin estetik tərbiyəsini formalaşdırmağı özündə şərtləndirən ən başlıca cəhətlərdən biri də pedaqoji əsasların ətraflı öyrənilməsidir.Məqalədə kiçik məktəbyaşlı şagirdlərin estetik tərbiyəsinin formalaşdırılması işinin ümumpedaqoji prinsiplərinin, üsullarının, qaydalarının, vasitələrinin imkan və yollarından söhbət açılır. Təcrübə və müşahidələr göstərir ki, musiqi dərsi məktəbdə ibtidai sinif şagirdlərin estetik tərbiyəsinin formalaşmasında və inkişafında böyük potensiala malikdir. Belə ki, musiqi əsərləri məktəblilərin estetik dünyagörüşlərinə, mənəviyyatına, iradəsinə təsir edir, onu fəal həyat mövqeyi tutmağa istiqamətləndirir.*

**Açar sözlər:** *estetik-bədii zövq, musiqi təlimi, estetik tərbiyə*

Müasir dövrdə şagirdlərin XXI əsrin tələb etdiyi kompetensiyalara malik olması tədris prosesinin maraqlı təşkilindən, şagirdlərin motivasiyasının, idrak fəallığının dərs boyu saxlanılması və artırılmasından, istifadə olunacaq iş üsulları və formalarının düzgün seçilməsindən, şagirdlərə verilən tapşırıqların cəlbedici, əyləncə xarakterli, tənqidi, məntiqi, yaradıcı təfəkkürü inkişaf etdirəcək məzmunda hazırlanmasından, öyrənənlərin müstəqil, yaradıcı fəaliyyətinin təmin olunmasından və s. asılıdır. Şagirdlərin əksəriyyəti musiqini çox sevir, milli musiqi xəzinəmizin öyrənilməsi üçün səy göstərir, dərsdənkənar və məktəbdənkənar tədbirlərdə böyük həvəslə iştirak edirlər. Uşaqlar proqramda olan bütün mövzuları sevə-sevə öyrənir, həm canlı, həm də İKT-dən, müxtəlif kompyuter proqramlarından istifadə edərək özləri səhnəciklər qurur, bəstəkarların həyat və yaradıcılığından, müxtəlif musiqi janrlarına aid olan əsərlərindən bəhs edən təqdimatlarla, referatlarla həm də dərsdə mövzuya uyğun şəkildə keçirilən tədbirlərdə iştirak edirlər.

Estetik tərbiyənin mahiyyəti şagirdlərdə estetik hisslərin yaradılmasına kömək etməyə, onlarda həyata estetik münasibət formalaşdırmağa, gözəlliklərin qavranılması və başa düşülməsi ilə bağlı yaranan estetik hissi, bədii zövqü aşılamağa, kiçikyaşlı məktəblilərdə fərdi və kollektiv bədii yaradıcılıq qabiliyyətini inkişaf etdirməyə əsaslanan emosional bağlılıqdır. Bu bağlılığın məqsədi məktəblilərdə sağlam bədii zövq inkişaf etdirməkdən, gözəlliyin mahiyyətini onlara aydınlaşdırmaqdan və bu gözəlliyə məhəbbət hissini aşılamaqdan ibarətdir.

Məktəbdə estetik tərbiyə ilk növbədə dərsdə ayrı-ayrı fənlərin tədrisi

**Məqalə tarixçəsi:**
Göndərilib: 25.02.2019, qəbul edilib: 12.02.2019

prosesində və dərsdənkənar vaxtlarda həyata keçirilir. Bu prosesdə digər fənlər kimi musiqi fənnini də xüsusi qeyd etmək lazımdır. Musiqi təlimi zamanı uşaqlara ülvi hisslər aşılanır, onları mənəvi cəhətdən yüksəldir, nəcib, səmimi duyğular yaradır.

XXI əsrin məktəbliləri estetik-bədii zövqlərinin inkişaf etdirilməsində zəngin mahnıları, melodiyaları, rəqsləri dinləyib ifa etməyə üstünlük verir və ciddi musiqi nümunələrnə daha çox meyl göstərirlər. Ona görə ibtidai siniflərdən başlayaraq şagirdlərə öyrətmək üçün onların bədii zövqlərinin inkişafını təmin edən mahnı və melodiyalardan istifadə etmək faydalıdır. Bu baxımdan musiqi təlimi zamanı estetik tərbiyə ilə bağlı olan, bədii zövqü özündə ifadə edən, ətraf mühitdəki və özündəki gözəllik, əzəmət, uçalıq elementlərini səciyyələndirən musiqi nümunələrinə geniş yer verilməsi mühüm əhəmiyyət kəsb edir (3,s.26).

Musiqi nümunələri vasitəsilə kiçikyaşlı məktəblilərin estetik tərbiyəsini hərtərəfli inkişaf etdirmək üçün bu sahədə görülən işlərin pedaqoji əsaslarını aydınlaşdırmaq lazım gəlir.

İstər təlim prosesində, istərsə də dərsdənkənar tədbirlərdə ibtidai sinif şagirdlərinin estetik cəhətdən maariflənməsini təmin etmək üçün mahnı repertuarının seçilməsi, ifa edilməsi, dinlənilməsi işini düzgün təşkil etməkdən ötrü mütləq ən zəruri pedaqoji tələblərin gözlənilməsi, müvafiq didaktik prinsiplərə istinad edilməsi, ümumpedaqoji üsul və vasitələrin gücündən istifadə edilməsi vacibdir.

Musiqi müəllimləri əgər təlim prosesində şagirdlərin estetik tərbiyəsinin təşkilinə təkan verən ümumi pedaqoji qaydalar müəyyən edirlərsə, bu qaydalar da müvafiq pedaqoji əsaslara söykənməlidir. Burada iki cəhətə diqqət yetirmək lazım gəlir. Birincisi odur ki, musiqi müəllimlərinin müəyyənləşdirdikləri bu qaydalar spesifik xarakter daşımalıdır. Məşğələlərin spesifik xarakter daşıması isə o deməkdir ki, digər fənlərin tədrisindən fərqli olaraq musiqi dərsləri üçün səciyyəvi olan bədii zövq elementlərinin, melodiyaların ritmik ahənginin dinamik çalarlarının nəzərə alınması kimi amillərə məsuliyyətlə yanaşmaqla yanaşı şagirdlərdə estetik hisslərin oyadılması da tövsiyə olunur. İkinci cəhət isə musiqi müəllimlərinin estetik hisslərin oyadılması ilə bağlı müəyyənləşdirdikləri qaydaların müvafiq mərhələlər üzrə həyata keçirilməsi faydalıdır.

Musiqi dərslərində estetik dünyagörüşü formalaşdırmağa xidmət edən mərhələli işin isə aşağıdakı şəkildə təşkili tövsiyə olunur:

Birincisi, mənəvi zövqün aşılanmasına həsr olunan mahnıların əsasən qavranılması mərhələsinin düzgün təşkili. Bu mərhələdə mənəvi tərbiyəyə aid mahnı və melodiyaların estetik cəhətdən ahəngdar duyulması, normal qavranılması və hafizədə uzun müddətli saxlanılmasından ötrü spesifik xarakterli iş aparılır.

İkincisi, təbiət gözəlliklərinin, ətraf aləmin qavranılmasına həsr olunan mahnı və melodiyaların estetik dəyərinin başa düşülməsi mərhələsinin düzgün təşkili. Bu mərhələdə motivləşdirmə ilə bağlı işə geniş yer verilməlidir. Yəni əsas motiv estetik hisslərin aşılanması olduğunu sübuta yetirən iş modelinin ortalığa qoyulmasıdır.

Üçüncüsü, estetik tərbiyənin formalaşdırılmasına həsr olunan mahnı və melodiyaların qavranılması, başa düşülməsi mərhələlərindən sonra bu musiqi nümunələrinin yaddaşlarda möhkəmləndirilməsi vacibdir.

Dördüncü mərhələdə isə əvvəlki mərhələlərdə həyata keçirilən işlərin qiymətləndirilməsi nəzərdə tutulur.

Göstərilən mərhələlər üzrə həyata keçirilən işlərin məqsədyönlü, planlı və mütəşəkkil olaraq həyata keçirilməsi üçün müvafiq vəzifələrin həlli yollarının da düzgün müəyyənləşdirilməsi yaxşı olardı. Bir də yaxşı olardı ki, bu vəzifələri musiqi müəllimləri tədris etdikləri mövzunun və ya təşkil etdikləri dərsdənkənar tədbirin əsas mövzusunun motivlərinə uyğun olaraq müəyyənləşdirsinlər.

Bu zaman həm də iki istiqamətdə işin aparılmasına ehtiyac yaranır. Çünki digər fənlərdən fərqli olaraq musiqi fənninin tədrisində əsas istiqamət üzrə aparılan işlərin mərkəzində mahnı və melodiyaların seçilməsi, öyrənilməsi, dinlənilməsi durursa, ikinci istiqamət üzrə həyata keçirilən işlərin fonunda mahnı və melodiyaların estetik tərbiyə baxımından imkanlarının üzə çıxarılması durur.

Mahnı və melodiyalar üzərində iş apararkən ən zəruri vəzifələrin həllinə də nail olmaq lazım gəlir:

-mahnı və melodiyalar üzərində iş apararkən ilk növbədə uşaqların bədii yaradıcılıq qabiliyyətlərinin üzə çıxarılması və inkişaf etdirilməsi üzərində iş aparılmalıdır;

-mahnı və melodiyaların düzgün qavranılması üzrə spesifik iş aparılmalıdır;

-uşaqlara vokal səriştəsi qazandırmaq üzrə iş aparılmalıdır;

-uşaqlara artikulyasiya vərdişləri qazandırmaq üzərində iş aparılmalıdır;

-mahnı və melodiyaların ritmi, tempi və dinamik xarakterləri üzərində ış aparılmalıdır.

Musiqi dərslərində ikinci istiqamət üzrə, yəni uşaqların estetik tərbiyəsi ilə bağlı həyata keçirilən işləri planlaşdırarkən yenə də müvafiq vəzifələrin həllinə çalışmaq lazım gəlir. Yeri gəlmişkən qeyd olunmalıdır ki, bir sıra mütəfəkkir və pedaqoqlar belə vəzifələri müəyyənləşdirib həll olunması ilə bağlı tövsiyələr verərkən müxtəlif yanaşma tərzlərini irəli sürürlər. Məsələn, Azərbaycan professional musiqisinin banisi Üzeyir Hacıbəyov "Azərbaycanda musiqi tərəqqisi" əsərində musiqinin uşaqların estetik tərbiyəsinin formalaşdırılması ilə bağlı qarşıda duran vəzifələr sırasına aşağıdakılar daxil edilmişdir:

-musiqi insanlara həm estetik, həm də emosional bədii tərbiyəvi təsir göstərir(1, s.244);

-ümumtəhsil məktəblərində çoxsəsli uşaq xorlarının yaradılması şagirdlərə estetik hisslər aşılayır(1, s.244);

-xalq musiqisindən başqa dünya musiqisi korifeylərinin də əsərləri ilə tanışlıq şagirdlərin musiqi estetik tərbiyəsi prosesində mühüm rol oynayır (1, s.251).

Ibrahimov F.N. və Hüseynzadə R.L. tərəfindən hazırlanan "Pedaqogika" adlı dərs vəsaitində uşaqların estetik tərbiyəsinin formalaşdırılması ilə bağlı qarşıda duran vəzifələr sırasına aşağıdakılar daxil edilmişdir:

- şagirdlərin estetik anlayışlarını, estetik mühakimələrini, estetik zövq və baxışlarını, bədii təxəyyülünü, gözəlliyi duymaq, qavramaq qabiliyyətlərini formalaşdırmaq və inkişaf etdirmək;

- mənəvi mədəniyyətin tərkib hissəsi olan estetik mədəniyyətə (əməkdə, incəsənətdə, davranışda gözəlliyi, xeyirxahlığı, yaxşılığı duymaq, qiymətləndirmək və fərqləndirmək) yiyələnmək;

- kiçikyaşlı məktəblilərə ictimai həyatda, incəsənətdə gğzəlliyi duymağı və hiss etməyi öyrətmək;

- uşağın qarşısında təbiət və cəmiyyətdəki gözəllikləri açmaq, onların estetik qabiliyyətlərini inkişaf etdirmək(4, s.306).

Əslində ən zəruri pedaqoji əsaslardan biri kimi irəli sürülən bu vəzifələr ibtidai siniflərdə musiqi məşğələlərini aparan musiqi və sinif müəllimləri qarşısında deyil, həm də  yuxarı siniflərdə musiqini tədris edən müəllimlərlə yanaşı, dərsdənkənar, məktəbdənkənar tədbirlərdə musiqi nümunələrindən istifadə etməklə məktəblilərin estetik tərbiyəsinin inkişafı ilə bağlı iş aparan bütün mütəxəssislərin qarşısında qoyulmalıdır.

Xüsusilə ibtidai siniflərdə musiqi dərslərini aparanlar "Cücələrim" (Qəmbər Hüseynli), "Köhlən atım" (Cahangir Cahangirov), "Çiçək" (Səid Rüstəmov), "Söyüdüm" (Oqtay Zülfüqarov), "Qərənfil" (Oqtay Zülfüqarov), "Sərçənin nəğməsi" (Oqtay Zülfüqarov), "Quzum" (Fikrət Əmirov), "Gül açdı" (xalq mahnısı), "Bənövşə" (Fikrət əmirov), "Bulaq" (Səid Rüstəmov), "Sarı Bülbül" (xalq mahnısı), "Torağay" (M.Qlinka), "Bülbül" (A.Atyabyev), "Bağçada gül", "Qubanın ağ alması" (xalq mahnıları) kimi estetik tərbiyə ilə bağlı mahnı və melodiyaları öyrənən, oxuyan, dinləyən, təhlil edən şagirdlərin bitki və heyvanat aləminə qayğıkeş münasibət bəsləməsi, onlara humanist mövqedən yanaşmaları, təbiətin taleyi üçün cavabdehlik hissi keçirmələri məhz qarşıya qoyulan həmin vəzifələrin həllinə uyğun olaraq həyata keçirilən spesifik işlərin nəticəsində mümkün sayıla bilər (2,s .13).

Musiqi dərslərində ibtidai sinif şagirdlərinin estetik-bədii zövqlərinin formalaşdırılması işi mühüm əhəmiyyət kəsb edir.Ona görə ki, kiçikyaşlı məktəblilərə musiqi nümunələri vasitəsilə ətraf mühitə məhəbbət hissi aşılamaq, təbiət gözəlliklərini qorumağa istiqamətləndirmək daha asandır. Mahnı və melodiyaların təsir gücü ilə estetik tərbiyə ilə bağlı şagirdlərin zövqləri də saflaşır.

## ƏDƏBİYYAT

1. Hacıbəyov Ü. "Azərbaycanda musiqi tərəqqisi" əsərləri. II cild,Bakı,1965
2. Rəcəbov O,Kazımov N,Rəcəbova N.Ümumtəhsil məktəblərinin 2-ci sinfi üçün "Musiqi" dərsliyi,2016.
3. Musiqi  estetik tərbiyə vasitəsidir.(Elmi əsərlər  məcmuəsi) Bakı,APİ,1981
4. İbrahimov F.N., Hüseynzadə R.L. "Pedaqogika" dərslik, II cild, Bakı, 2012

## РЕЗЮМЕ

**БИЛАЛ ЕРДОГАН**

**НЕКОТОРЫЕ ВОПРОСЫ ФОРМИРОВАНИЯ ЭСТЕТИЧЕСКОГО ВОСПИТАНИЯ УЧАЩИХСЯ В ПРОЦЕССЕ МУЗЫКАЛЬНОГО ОБУЧЕНИЯ**

Одним из условий музыкального обучения учащихся начальных классов является формирование эстетического воспитания и всестороннего изучения педагогических основ. В статье речь идет о возможностях и путях правил, общепедагогических принципов учащихся младшего возраста. Опыты и наблюдения указывают на то, что музыкальное обучение в школе имеет большой потенциал в формировании и развитии эстетического воспитания учащихся младших классов. И так, музыкальные произведения влияют на эстетическое мировоззрение, нравственность и волю, направляет его на активную позицию в жизни.


**Ключевые слова:** эстетическо-художественныи вкус, музыкальное обучение, эстетическое воспитание.


## SUMMARY

**BILAL ERDOGAN**

**SOME PROBLEMS ABOUT FORMATION OF THE ESTHETIC UPBRINGING OF THE CHILDREN IN THE PROCESS OF MUSIC EDUCATION**

One of the key concepts that constitutes the aesthetic education of primary school students during musical training is the study of pedagogical foundations. The article deals with ways and means of general principles, methods, rules, means of working out of aesthetic education of younger pupils. Practice and observation suggests that music lessons have a great potential in shaping and developing the aesthetic education of primary school students. Thus, musical compositions influence the aesthetic perspectives, morals and will of the schoolchildren and direct it to an active life position.


**Key words:** aesthetic-artistic pleasure, musical education, aesthetic education

*(Pedaqogika üzrə elmlər doktoru, professor İ.Əliyev tərəfindən təqdim edilmişdir)*